**A Z Ə R B A Y C A N R E S P U B L İ K A S I**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**S Ə R Ə N C A M I**

**№ 5** **“12” 01 2022-ci il**

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısı yanında Dini İşlər üzrə Komissiyanın 2022-ci il üzrə tədbirlər planının təsdiq edilməsi haqqında**

Binəqədi Rayon İcra Hakimiyyəti başçısı yanında Dini İşlər üzrə Komissiyanın fəaliyyətinin gücləndirilməsi məqsədilə “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununun 28-ci maddəsini və “Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamə”nin 3.14.1 və 6.8-ci bəndlərini rəhbər tutaraq

**Qərara alıram:**

1. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı yanında Dini İşlər üzrə Komissiyanın 2022-ci il üzrə Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).
2. Rayon İcra Hakimiyyəti başçısının müavinlərinə, şöbə müdirlərinə tapşırılsın:

2.1. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin müəyyən olunmuş icra müddətində yerinə yetirilməsini təmin etsinlər və icrasını əlaqələndirsinlər.

3. Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın ki, Sərəncamın aidiyyəti üzrə çatdırılmasını təmin etsin.
4. Bu Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

"Təsdiq edirəm"

Binəqədi Rayon İcra Hakimiyyəti

başçısı ____________ Elxan Allahverdiyev

"12" "yanvar" 2022-ci il

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısı yanında Dini İşlər üzrə Komissiyasının 2022-ci il üçün**

# TƏDBİRLƏR PLANI

| Sıra № | Görüləcək işlərin məzmunu | İcraçı(lar) | İcra vaxtı |
|---|---|---|---|
| 1. | Rayonda dini qurumların fəaliyyətində mövcud qanunvericiliyin tələblərinə riayət olunmasına nəzarətin gücləndirilməsi, qanunazidd halların qarşısının alınması məqsədilə müvafiq tədbirlərin görülməsi | Binəqədi RİH, Binəqədi Rayon Prokurorluğu, Binəqədi Rayon Polis İdarəsi, DTX-nın Binəqədi rayon İdarəsi, DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi | Mütəmadi |
| 2. | Rayon ərazisində radikal yönümlü dindarlar haqqında məlumat bazasının formalaşdırılması, bu işin sistemli şəkildə davam etdirilməsi və dini radikalizmi təbliğ edən heyət qruplarının fəaliyyətinin qarşısının alınması | Binəqədi RİH, Binəqədi Rayon Prokurorluğu, Binəqədi Rayon Polis İdarəsi, DTX-nın Binəqədi rayon İdarəsi, DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi | Mütəmadi |
| 3. | Dini radikalizm və ekstremizmə qarşı mübarizə, eyni zamanda vətənpərvərlik tərbiyəsinin təbliği tədbirləri çərçivəsində təhsil müəssisələrində şagirdlərin və tələbələrin iştirakları ilə tədbirlərin həyata keçirilməsi | Binəqədi RİH, DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi, təhsil müəssisələri | Tədris ili ərzində |
| 4. | Azərbaycanın tolerantlıq ənənələrinin təbliği məqsədilə rayon gənclərinin və könüllülərinin Heydər Məscidinə ziyarətinin təşkil edilməsi | Binəqədi RİH, rayon Gənclər və İdman İdarəsi, Heydər məscidi | Mütəmadi |

| | | | |
|---|---|---|---|
| 5. | Rayon ərazisində məscid, ibadət yerləri, ziyarətgah və mədrəsənin fəaliyyəti ilə yaxından tanış olmaq məqsədilə bu yerlərə baxışlar keçirilməsi, dini ayinlərin monitorinqi, dini icmaların tərkibi, fəaliyyəti və dini durum barədə məlumatların toplanması və dəqiqləşdirilməsi | Binəqədi RİH,<br>Binəqədi Rayon Prokurorluğu,<br>Binəqədi Rayon Polis İdarəsi,<br>DTX-nın Binəqədi rayon İdarəsi,<br>DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi | Mütəmadi |
| 6. | "Dini ibadət yerinin tikintisinin və mövcud dini ibadət yerinin yenidən qurulmasının (bərpasının, əsaslı təmirinin) məqsədəuyğunluğu barədə rəy verilməsi haqqında" Təlimatın tələblərinin həyata keçirilməsi istiqamətində işlərin görülməsi | Binəqədi RİH,<br>DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi | Mütəmadi |
| 7. | "Məhəllə görüşləri" çərçivəsində rayon gəncləri ilə dini radikalizm, eksterimizm və ksenofobiya ilə mübarizə sahəsində maarifləndirmə söhbətlərinin aparılması | Dini İşlər üzrə Komissiya,<br>Rayon Gənclər və İdman İdarəsi | İl ərzində |
| 8. | "Dini etiqad azadlığı" haqqında Azərbaycan Respublikasının Qanununun tələblərinin pozulması, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən dini təbliğatın aparılması, habelə dini ayinlərin icrasına maneçilik törədilməsi və dini ayinlərin icrası adı altında aşkarlanmış hüquq pozuntuları hallarına qarşı önləyici tədbirlərin görülməsi | Binəqədi RİH,<br>Binəqədi Rayon Prokurorluğu,<br>Binəqədi Rayon Polis İdarəsi,<br>DTX-nın Binəqədi rayon İdarəsi,<br>DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi | Mütəmadi |
| 9. | Dini təhsil almaq üçün xarici ölkələrə göndərilməsi planlaşdırılan şəxslər aşkarlandıqda onların ailələri ilə profilaktik işin aparılması, bu sahədə vasitəçilik edən şəxslərin fəaliyyətinin məhdudlaşdırılması | Binəqədi RİH,<br>Binəqədi Rayon Prokurorluğu,<br>Binəqədi Rayon Polis İdarəsi,<br>DTX-nın Binəqədi rayon İdarəsi,<br>DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi | Mütəmadi |

| | | | |
|---|---|---|---|
| **10.** | Xaricdə dini təhsil alan şəxslərin məscidlərdə dini ayin icrasını həyata keçirməsinin qarşısının alınması və onların cəmiyyətə inteqrasiya edilməsi üzrə müvafiq tədbirlərin görülməsi | Binəqədi RİH, Binəqədi Rayon Prokurorluğu, Binəqədi Rayon Polis İdarəsi, DTX-nın Binəqədi rayon İdarəsi, DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi | Mütəmadi |
| **11.** | Rayon ərazisində icazəsi olmayan, xüsusilə qadağan edilmiş dini təyinatlı ədəbiyyat materiallarının satışının qarşısının alınması məqsədilə mütəmadi olaraq monitorinqlərin keçirilməsi, aşkarlanmış qanun pozuntuları üzrə müvafiq inzibati tədbirlərin görülməsi | Binəqədi RİH, Binəqədi Rayon Prokurorluğu, Binəqədi Rayon Polis İdarəsi, DTX-nın Binəqədi rayon İdarəsi, DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi | Mütəmadi |
| **12.** | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondu ilə birgə tədbirlərin keçirilməsi | Binəqədi RİH, DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi | Mütəmadi |
| **13.** | "Heydər Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda dindarlar arasında söhbətlərin təşkil edilməsi | Binəqədi RİH, DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi | May |
| **14.** | Dini əlamətdar günlərin (Ramazan, Qurban və Pasxa bayramlarının) dövlətçilik prinsiplərinə və milli-mənəvi dəyərlərimizə uyğun qeyd olunmasının təmin edilməsi, Aşura günü neqativ halların qarşısının alınması məqsədilə önləyici tədbirlərin həyata keçirilməsi | Binəqədi RİH, Binəqədi Rayon Prokurorluğu, Binəqədi Rayon Polis İdarəsi, DTX-nın Binəqədi rayon İdarəsi, DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi | Dini-əlamətdar günlərdə |
| **15.** | Rayon ərazisində fəaliyyət göstərən dini icmalar, onların rəhbərləri və din xadimləri ilə yerlərdə mütəmadi görüşlərin keçirilməsi, dini durumun müzakirə olunması, təhlillərin aparılması və onlara müvafiq tövsiyələrin verilməsi | Binəqədi RİH, DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi | Mütəmadi |

| | | | |
|---|---|---|---|
| 16. | "Dünyəvi dövlətdə din və təhsil" mövzusunda seminar-treninqlərin keçirilməsi | Binəqədi RİH, DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi, rayon Gənclər və İdman İdarəsi, Binəqədi Gənclər Evi SXM | İl ərzində |
| 17. | 16 Noyabr – Beynəlxalq Tolerantlıq Günü münasibətilə "Azərbaycan–tolerantlıq nümunəsi" adlı tədbirin təşkili | Binəqədi RİH | Noyabr |
| 18. | Radikal dini cərəyanların təbliğində sosial şəbəkədən fəal istifadə olunmasını nəzərə alaraq, bu sahədə nəzarətin gücləndirilməsi, aparılan monitorinqlərin nəticələri üzrə aidiyyəti qurumlarla daim məlumat mübadiləsinin həyata keçirilməsi, zərərli sayt, qrup və səhifələrin müəyyənləşdirilməsi | Binəqədi RİH, Binəqədi Rayon Prokurorluğu, Binəqədi Rayon Polis İdarəsi, DTX-nın Binəqədi rayon İdarəsi, DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi | Mütəmadi |
| 19. | Rayon ərazisində dini qurumların qanunvericiliklə nəzərdə tutulmuş qaydada dövlət qeydiyyatının həyata keçirilməsi, dini qurumların təşkilati işlərinin qanunauyğun qurulmasına köməklik göstərilməsi ilə bağlı müvafiq tədbirlərin görülməsi | Binəqədi RİH, DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi | Mütəmadi |
| 20. | Qanunda göstərilən əsaslar olduqda dini qurumun ləğv edilməsi barədə müvafiq tədbirlərin görülməsi | Binəqədi RİH, Binəqədi Rayon Prokurorluğu, Binəqədi Rayon Polis İdarəsi, DTX-nın Binəqədi rayon İdarəsi, DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi | Mütəmadi |
| 21. | İbadət yerlərinə din xadimlərinin təyin olunması barədə aidiyyəti qurumlar qarşısında məsələ qaldırılması | Binəqədi RİH, DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi | Mütəmadi |
| 22. | Rayonda dini durum haqqında Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına hesabatların təqdim edilməsi | Binəqədi RİH | Hər rüb başa çatdıqdan sonra |
| 23. | Dini qurumlardan məlumatlar almaqla ümumi məlumat bankının yaradılması | Binəqədi RİH, DQİDK-nın Bakı şəhəri üzrə şöbəsi, Dini icmalar | Mütəmadi |

| | | | |
|---|---|---|---|
| **24.** | Komissiyanın fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxılması və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görülməsi, eyni zamanda fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələrin yerinə yetirilməsi | Binəqədi RİH | Mütəmadi |
| **25.** | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı yanında Dini İşlər üzrə Komissiya tərəfindən 2022-ci il ərzində görülmüş işlərin Şura iclasında müzakirəsinin təşkili | Binəqədi RİH | Dekabr-2022 |

**Binəqədi RİH başçının müavini, Dini komissiyanın sədri** **Sevinc Süleymanova**

***Razılaşdırılmışdır:***

**Binəqədi Rayon Prokuroru** **Fuad Məmmədov**

**Binəqədi Rayon Polis İdarəsinin rəisi** **Musa Musayev**

**Dövlət Təhlükəsizliyi Xidmətinin Binəqədi Rayon İdarəsinin rəisi** **Polad Abdullayev**

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Bakı şəhəri üzrə şöbəsinin müdiri vəzifəsini icra edən** **Anar Kazımov**